*"Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur".*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 yanvar 2015-ci il № 8 (1924) Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq edib

***Azərbaycan Prezidenti İlham Əliyev gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi ilə bağlı Sərəncam imzalayıb.***

Sərəncama əsasən, Gənclər və İdman Nazirliyinə Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində əlaqələndirməni təmin etmək və onun həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

Qeyd edək ki, Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan ölkəmizin mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

**AzərTAc**

## Norveç QHT-ləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanat yayıblar

***Norveçin 25 qeyri-hökumət təşkilatını özündə birləşdirən Saqene Beynəlxalq və Multikultural Könüllülər Mərkəzi (SAİFF) Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləyən bəyanat yayıb. Bu barədə AzərTAc-a Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri Ramil Əliyev məlumat verib.***

Bəyanatda bildirilir ki, BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı 4 qətnamə qəbul etməsinə baxmayaraq, ədalət bu günə qədər öz yerini tapmayıb. Qeyd edilir ki, erməni işğalından əvvəl Qarabağda 600-dən çox tarixi abidə və 1050-dən artıq qədim tikili mövcud olub. İşğal nəticəsində təkcə Qafqazın konservatoriyası kimi tanınan Şuşada 36 təhsil ocağı, 435 mədəni və dini mərkəz, 10 muzey və qala məqsədyönlü şəkildə dağıdılıb.

Bəyanatda Ermənistanın hələ 1988-ci ildə, Sovet İttifaqının süqutundan əvvəl Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etdiyi və hərbi əməliyyatlara başladığı diqqətə çatdırılır. 1994-cü ildə atəşkəs elan olunana qədər Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu işğal etmişdi. İşğalçılar zəbt etdikləri ərazilərdə tarixi və mədəni irsi qəsdən dağıdıb, etnik təmizləmə həyata keçiriblər. Bütün bunlar silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa və Ümumdünya mədəni və təbii irsin qorunması haqqında 1972-ci il UNESCO konvensiyalarına ziddir.

"SAİFF-in idarə heyəti Azərbaycanın mədəniyyətinə, musiqisinə, adət-ənənələrinə və insanlarına həmrəylik və beynəlxalq dəstək aktı olaraq "Qarabağa azadlıq" bəyanatını imzalayır, bu regionun daha yaxşı gələcəyi naminə dünya birliyinin digər üzvlərinə qoşulur", - deyə bəyanatda bildirilir.

## Monitorinq zamanı erməni tərəfi növbəti dəfə təxribata cəhd göstərib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq yanvarın 29-da Qazax rayonunun Məzəm kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən növbəti monitorinq başa çatıb.

Monitorinq zamanı erməni tərəfi yenə də təxribata cəhd göstərib.

Belə ki, monitorinqdən əvvəl əldə olunmuş razılaşmaya əsasən ermənilər təmas xəttinin qarşı tərəfində monitorinqdə iştirak edən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçilərini təyin olunmuş koordinatlara düzgün çıxarmayıblar. Bununla da monitorinqin keçirilmə vaxtı gecikdirilib.

Müəyyən prosedurlar həll edildikdən sonra monitorinqin keçirilməsi mümkün olub.

Lakin monitorinqin sona çatmasına az qalmış Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq ATƏT nümayəndələrinin olduğu ərazidən bir qədər aralıda mövqelərimizi bir neçə dəfə atəşə tutublar.

Müdafiə Nazirliyi bir daha bildirir ki, beynəlxalq hüququn normalarına və prinsiplərə məhəl qoymayan erməni tərəfinin təxribat xarakterli bu cür əməlləri artıq sistematik hal alıb. Düşmən tərəfi hər dəfə təmas xəttində vəziyyəti gərginləşdirməklə beynəlxalq təşkilatların normal fəaliyyətinə şərait yaratmır və onların müəyyən olunmuş vəzifələrinin icrasına məqsədyönlü şəkildə mane olurlar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*2 Fevral Gənclər Günüdür*

# Vətənpərvər gənclik cəmiyyətin ön sıralarındadır

## Dövlətin diqqət və qayğısını hiss edən gənclərimiz doğma Azərbaycanımızın daha da inkişaf etməsinə öz töhfələrini verirlər

***Azərbaycan gəncliyi tarixin müxtəlif dövrlərində cəmiyyətin aparıcı qüvvvəsi olaraq gərgin ictimai-siyasi proseslərin ön sıralarında addımlayıb. Milli gəncliyimizin dünənini, keçmişini düşünəndə müharibə meydanlarında Vətənini son damla qanına kimi qoruyan məğrur hərbçilərimizi, istehsalatda və təsərrüfatda xarüqələr yaratmış zəhmətkeş gənclərimizi, həmçinin elm, mədəniyyət, incəsənət, idman sahələrində yetərli uğurlara imza atmış oğul və qızlarımızı xatırlayırıq.***

Ali Baş Komandan İlham ƏLİYEV:

*"Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir".*




Ölkəmizin hər bir sahəsində qazanılan uğurlar ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğu kimi, Azərbaycan gəncliyinin də formalaşması biləvasitə onun adı ilə bağlıdır. Hələ sovetlər dönəmindəki birinci hakimiyyəti dövründə dahi rəhbər bütün qadağalara baxmayaraq gənc nəslin milli-mənəvi dəyərlərimiz və xalqımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsi üçün əlindən gələni əsirgəmirdi. Ümumiyyətlə, müdrik dövlət xadimi hakimiyyətinin bütün dövrlərində gəncliyə böyük ümidlə baxıb, cəmiyyətin aparıcı qüvvəsinə inam bəsləyib.

Hələ ötən əsrin 70-ci illərində Azərbaycanda ibtidai hərbi təhsil ocağının açılması ilə gənc nəsildə vətənpərvərlik hisslərinin oyanmasına, gənclərimizin hərbi peşələrə marağının yüksəlməsinə zəmin yaranmışdı. Bu gün Silahlı Qüvvələrdə xidmət edən zabitlərin əksəriyyəti həmin məktəbin yetirmələridir. Onların arasında respublikamızın ərazi bütövlüyü uğrunda Qarabağ müharibəsində qəhrəmanlıqlar göstərmiş, erməni daşnaklarına qarşı mübarizədə canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmiş, ali dövlət mükafatlarına layiq görülmüş hərbçilər az deyil. Həmin təhsil ocağının məzunları arasında bu gün neçə-neçə generalımız, yüksək rütbəli zabitlərimiz vardır.

Ötən əsrin 90-cı illərində hakimiyyətə yenidən qayıdan ümummilli liderimiz gənclərə münasibəti dövlətin prioritet vəzifələri səviyyəsinə qaldırdı. Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası, ölkədə baş verən mürəkkəb hadisələr taleyüklü problemlərin ortaya çıxmasına səbəb olmuşdu. Müdrik dövlət rəhbəri o zaman böyük qüvvə olan gəncliyə arxalandı. Və hesab etdi ki, xalqın taleyi ilə bağlı problemləri sağlam, savadlı, Vətənini sevən yeni nəsil aradan qaldıra bilər. Buna görə də dövlətin gənclər siyasətinin başlıca istiqaməti kimi onların vətənpərvərlik ruhunda tərbiyə edilməsinə ciddi əhəmiyyət verildi. Dahi rəhbər gənclərin ümumrespublika toplantısındakı çıxışı zamanı qeyd edirdi ki, "Azərbaycan gəncliyi yüksək vətənpərvərlik ruhunda tərbiyə edilməli, millətinə və dövlətinə sədaqət hisslərini hər şeydən üstün tutmalıdır".

Əvvəlcə ümummilli lider gənclərin böyük bir qrupu ilə görüş keçirdi və cəmiyyətin idarə edilməsində onların ictimai fəallığını artırmaq məqsədilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması barədə sərəncam imzaladı. Həmçinin, ölkənin ictimai-siyasi həyatında gənclərin fəaliyyətini gücləndirmək məqsədilə dövlət başçısının 1996-cı ildə xüsusi sərəncamı ilə Azərbaycan gənclərinin ilk forumu keçirildi. Gənc nəslin nümayəndələri forumda maraqlı ideya və təkliflərlə çıxış etdilər və bildirdilər ki, onlar ölkənin uğurlu gələcəyini təmin etməyə qadirdirlər.

Forumda çıxış edən ulu öndər Azərbaycanın qarşısında dayanan taleyüklü məsələlərin həlli və dövlətimizin tərəqqisi naminə gənclik qarşısında böyük vəzifələrin dayandığını vurğuladı. Onun forumdakı məzmunlu nitqi müstəqil dövlətimizin gəncləri üçün fəaliyyət proqramına çevrildi. Bu möhtəşəm toplantı respublikamızın ictimai həyatında böyük bir hadisə, gənclərin fəaliyyətində dönüş nöqtəsi oldu. Məhz buna görə də 2 fevral tarixi Azərbaycanda Gənclər Günü elan edildi.

Beləliklə, dövlət özünün gənclər siyasətini həyata keçirə bilməsi üçün lazımi hüquqi-normativ sənədlərin qəbul edilməsini ön plana çəkdi. Ölkə başçısı "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il tarixli fərmanı ilə Azərbaycanda böyüməkdə olan nəsillə bağlı siyasətin prioritet istiqamətlərini müəyyən etdi. Bundan sonra qəbul edilmiş sənədlər Azərbaycanda gənclərin problem və qayğılarına nə qədər böyük diqqətlə yanaşıldığını əyani göstərir. Ümummilli liderin məqsədyönlü gənclər siyasəti bu gün artıq öz bəhrəsini verməkdədir. Dövlətin diqqət və qayğısını hiss edən gənclərimiz sabaha böyük ümidlərlə baxır və bu inam doğma Azərbaycanımızın daha da çiçəklənməsi, dünya dövlətləri arasında öz layiqli yerini tutması üçün mühüm əhəmiyyət kəsb edir.

Dahi rəhbər vurğulayırdı ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də orduda xidmət etməkdir. Gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətənin keşiyini çəkir, təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənir, bir sözlə, Azərbaycanın təhlükəsizliyi naminə qüvvələrini əsirgəmir.

Ölkəmizdə gənclər siyasəti müasir dövrdə də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev gənclərə daim diqqət və qayğı göstərir, Azərbaycanın gələcəyi naminə istedadlı, vətənpərvər nəslin formalaşması üçün lazımi şərait yaradır. Gənclər siyasəti ölkəmizin siyasi kursunun başlıca istiqamətlərindən birinə çevrilib və bu sahədə mühüm fəaliyyət proqramı təsis edilib. Hazırda ölkə gənclərinin siyasi və iqtisadi həyatda fəallığını artırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Dövlət başçısı dəfələrlə cəbhə bölgələrinə səfər edərək, səngərlərdə döyüşçülərimizlə görüşür, təlimlərdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edir. Belə yüksək diqqət və qayğı hərbçi gəncləri doğma Azərbaycanımıza daha sədaqətlə xidmət etməyə, yeni uğurlar qazanmağa sövq edir.

Bir həqiqəti qeyd etmək lazımdır ki, ölkəmizin 20 faiz ərazilərinin işğalda olduğu bir vaxtda gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və ordu həyatına hazırlanması mühüm qayğılarımızdan biridir. Azərbaycan Silahlı Qüvvələrində xidmət edən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Məhz buna görə də böyüməkdə olan nəslə vətənpərvərlik, qəhrəmanlıq və mübarizlik kimi əsas mənəvi keyfiyyətləri aşılamaq həm ailədə, həm təhsildə, həm də dövlət təşkilatlarında və ictimai qurumlarda əsas vəzifə kimi qarşıda dayanmalıdır. Ötən ilin avqustunda cəbhənin ön xəttində ərazilərimizə hücum edən düşmən qüvvələrinin qətiyyətli şəkildə məhv edilməsi, Azərbaycan əsgərinin son damla qanına kimi döyüşərək şəhidlik zirvəsinə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik hissləri yüksəkdir və onlar istənilən vaxt torpaqlarımızı işğaldan azad etməyə qadirdirlər.

Sübhə yoxdur ki, gənc nəsil milli-mənəvi dəyərlərimizə və bəşəri ideyalara sədaqətini nümayiş etdirmək üçün bundan sonra da ölkəmizin bütün quruculuq sahələrində yaxından iştirak edərək Azərbaycanın qüdrətli dövlət kimi inkişafına öz töhfəsini verəcəkdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# "Ordumuzun şəxsi heyəti qarşısında dayanan vəzifənin məsuliyyətini dərindən başa düşməlidir"

## Cəbhə bölgəsində yerləşən hərbi hissələrin mənəvi-psixoloji hazırlıq səviyyəsi yoxlanılır

***Bu yaxınlarda Nazirlər Kabinetində ötən ilin sosial-iqtisadi yekunlarına həsr edilmiş iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev birmənalı olaraq bəyan etdi ki, ölkənin hərbi qüdrətinin gücləndirilməsi növbəti dövrdə də dövlətin siyasi kursunda başlıca istiqamətlərdən biri olacaqdır. "Əlbəttə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq", - deyə dövlət başçımız bildirib.***



Artıq 2015-ci ilin dövlət büdcəsində hərbi xərclərin əhəmiyyətli dərəcədə artırılması ordu quruculuğuna ölkə rəhbərliyi tərəfindən göstərilən böyük diqqət və qayğının real nəticəsidir. Bu yüksək etimada cavab olaraq ordumuzun şəxsi heyəti yeni ilə inamlı addımlarla qədəm qoyub. Artıq yeni tədris dövrü hərbi hissələrimizdə yeni təlim və məşğələlərlə müşayiət olunur. Əlbəttə, ordunun döyüş qabiliyyətinin güclənməsində önəmli rola malik olan əsas amillərdən biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasıdır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin yaydığı məlumatda qeyd edildiyi kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, nazirin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev və Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Rüfət Əmirov idarə heyəti ilə birgə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yoxlanılması məqsədilə cəbhəboyu zonada yerləşən hərbi hissələrdədirlər. Əsasən ön xətdəki bölmələrin hərbi qulluqçuları ilə aparılan söhbətlərdə nazir müavini bildirib ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti qarşıda duran mühüm döyüş vəzifəsinin məsuliyyətini dərindən başa düşməli, bu tapşırıqların yerinə yetirilməsi üçün bacarıq və səylərini səfərbər etməlidir.

Onlar birlik və birləşmələrin şəxsi heyəti ilə görüşlər keçirərək vəziyyətlə yerində tanış olub, hərbi qulluqçuların günün nizam qaydalarına uyğun fəaliyyəti və sosial-məişət şəraiti ilə maraqlanıblar.

Bütün birlik və birləşmələrdə müxtəlif kateqoriyalardan olan şəxsi heyətlə keçirilən görüşlərdə hərbi qulluqçuların vətənpərvərlik ruhu, qalibiyyət əzmi, döyüş hazırlığı və maddi-texniki təminatı yüksək qiymətləndirilib.

Aparılan söhbətlər zamanı şəxsi heyət doğma yurdumuzdan işğalçıları qovmaq üçün son damla qanlarınadək döyüşəcəklərini bildiriblər.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistanın pilotsuz uçan aparatı məhv edilib

Yanvarın 29-da saat 14.00 radələrində cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçan aparat (PUA) Hərbi Hava Qüvvələrimiz tərəfindən məhv edilib.

Hadisə ilə bağlı əlavə məlumat veriləcəkdir.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***30 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 79 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Paravakar və Berkaber kəndlərində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Göyarx, Çiləbürt, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Baş Qərvənd, Şıxlar, Cəvahirli, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Oğullar Vətən üçün doğulurlar

***Ölkəmizin iqtisadi qüdrətinin artması bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da yüksəlişə, tərəqqiyə təminat yaratmışdır. Bu istiqamətdə həyata keçirilən islahatlar ordumuzun maddi-texniki bazasının daha da gücləndirilməsinə, döyüş hazırlığının təkmilləşdirilməsinə imkan verib. Göstərilən dövlət qayğısının bəhrəsidir ki, əsgər və zabitlərimiz qarşıya qoyulan döyüş tapşırıqlarını müntəzəm yerinə yetirirlər.***



"N" hərbi hissəsində də yeni tədris ilinin başlanmasına ciddi hazırlıq işləri görülüb, şəxsi heyət tədris ilinə böyük ruh yüksəkliyi ilə başlayıb. İlk məşğələlər Müdafiə naziri tərəfindən təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq yüksək səviyyədə keçirilib. Zabit Ramin Xudiyev bildirdi ki, hərbi hissənin şəxsi heyəti ötən ildə olduğu kimi, bu il də yeni-yeni nailiyyətlər qazanmaq üçün fədakarlıqla çalışır, nizam-intizama ciddi əməl edir. Torpaqlarımızın müdafiə olunması üçün ön xətdə xidmət edən əsgər və zabitlər yüksək vətənpərvərlik nümunəsi göstərirlər. Artıq düşmənlərimiz hiss edirlər ki, ordumuz kifayət qədər hərbi gücə, qüdrətə malikdir.

Gördüyümüz bu ərazilər düşmənlərdən həmişə mərdliklə qorunub. İgid döyüşçülər ata-babalarımızın qəhrəmanlıq ənənələrinə sadiq qalaraq Vətən uğrunda misilsiz xidmətlər göstərmişlər. Onlar xidmətdə fərqləndiklərinə görə müxtəlif orden və medallara layiq görülmüşlər. Gənc Vətən müdafiəçiləri özlərini onların layiqli davamçıları hesab edirlər. Zabit Etibar Namazov səngər həyatı yaşayan gənclərin hər birinin Vətənə, xalqa layiq döyüşçü olduğunu bildirir. Öyrənirik ki, bu hərbçinin özü də zəngin döyüş yolu keçmiş zabitlərdəndir. Son illər ordu həyatında baş verən yeniliklərdən, ordu rəhbərliyinin cəbhə bölgələrinə səfərlərindən danışan zabit şəxsi heyətin ruh yüksəkliyinin artmasında bu amillərin böyük rol oynadığını diqqətə çatdırır.

Vətən qarşısında əsgəri borcunu uğurla yerinə yetirən Yaqub Rzayev yenidən taleyini orduya bağlayıb, yəni, müddətdən artıq xidmət edən hərbi qulluqçudur. Yaqub doğma Vətənin müdafiəçiləri sırasına qatılmasından qürur hissi keçirdiyini söyləyir:

- Ölkəmizdə orduya göstərilən qayğı və diqqət bir çoxları kimi məni də Vətənə şərəfli xidmətə ruhlandırdı. Qərara gəldim ki, torpaqlarımızın keşiyində dayanmaq ən şərəfli, müqəddəs işdir. Vətən torpaqları nicatını igid oğullarından gözləyir. Fəxr edirəm ki, bu oğullar sırasındayam.

Zabit Niyaz Şairov da Yaqub Rzayevi qorxmaz, cəsarətli, igid bir döyüşçü kimi xarakterizə etdi. Döyüş hazırlığında fərqləndiyini, silahdaşlarını da buna sövq etdiyini bildirdi.

Əsgərlər Emin Abbasov, Zəfər Vəliyev və başqaları da çalışqan, nizam-intizamlı, hərb sənətini mükəmməl öyrənməyə çalışan döyüşçülərdəndir. Onlar döyüş silahlarından məharətlə istifadə etməyi bacarırlar. Səngər həyatı yaşayan bu oğullar düşmən ərazilərini heç vaxt nəzarətsiz qoymurlar. Döyüş növbətçiliyi çəkən Emin Abbasov düşmənin bütün hücumlarına, təxribatlarına cavab verməyə qadir olduqlarını diqqətə çatdırır. Qeyd edir ki, qəhrəmanlar yurdu olan bu torpaqların müdafiəsi bizlərə etibar olunub.

Növbəti həmsöhbətim Mahmud İsmayılov bir neçə ildir ki, cəbhə bölgəsində xidmətini davam etdirir. O, söhbətində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əsgərlərlə ön xətdə görüşünü yada salır. Həmin gün ona cənab nazir tərəfindən "Qüsursuz xidmətlərə görə" medalı təqdim olunub. Bu yüksək mükafatı baş gizir təkcə özünün yox, şəxsi heyətin uğuru sayır. Göstərilən etimadı həmişə doğruldacaqlarını bildirən bölüyün baş çavuşu qələbə naminə daha da fədakarlıqla çalışacaqlarını vurğulayır.

Səngər həyatı yaşayan igidlərdən ayrılsaq da, qəlbimizdə ordumuzun gücünə inam hissi daha da artır. İnanırsan ki, müasir tələblər səviyyəsində qurulan, möhkəmlənən Silahlı Qüvvələrimiz düşmənə qarşı zəfər yürüşünə hazırdır.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Namiq ARİFOĞLUNUNDUR**



***Səfərə çıxmağın, yol getməyin özünün də bir gözəlliyi var. Həm də baxır ki, sən hara gedirsən, hansı iş üçün gedirsən. Uca dağların ətəklərindən keçən bu yollar son nöqtədə məni hərbi hissəyə aparıb çıxaracaqdı. Orada isə torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan döyüşçülərlə görüşəcəyəm. Buna görə də yolu həvəslə gedirəm. Amma yollar sürüşkən olduğundan maşınımız aşağı sürətlə gedir. Sərt döngələr, dik yamaclar lap təhlükəlidir. Göz işlədikcə uzanıb gedən dağlar, dərələr ağ dona bürünüb.***

*Döyüş hazırlığı*

# Müqəddəs amal uğrunda...

Nəzarət-buraxılış məntəqəsində əraziyə daxil olmağa icazə veriləndən sonra əvvəlcə qərargaha yollandım. Zabit Polad Həşimovla xidməti otağında görüşdük. O bildirdi ki, hərbi hissənin şəxsi heyəti üzərinə düşən bütün tapşırıq və vəzifələri bacarıqla yerinə yetirir. "Zabit və əsgərlərimizin döyüş hazırlığı yüksəkdir. Səngərlərdə dayanan əsgərlərimizin barmaqları silahlarının tətiyindədir. Ermənilər atəşkəs rejimini pozmağa cəhd göstərən kimi dəqiq atəş zərbələrinə tuş gələrək geri çəkilirlər. Hər addımda əsgərlərimizin döyüş hazırlığının yüksək olduğu özünü göstərir. Son günlər düşmən bir neçə dəfə təxribat törətməyə cəhd etdi. Bütün bu cəhdlərin qarşısı qətiyyətlə alındı. Ordumuzun gücü, qüdrəti gündən-günə artır. Zabit və əsgərlərimiz keçirilən təlimməşqlərdə fəal iştirak edirlər. İnanıram ki, şəxsi heyətin xidmətdə qazandığı bu uğurlar davamlı olacaq".

Sonra təlim meydanına yollandıq. Ətrafdakı gözəl mənzərə bir anlıq bizi sehrləyir. Qış mənzərələrinə baxmağın da öz gözəlliyi var. Ağ dona bürünmüş dağlar, dərələr sanki qış yuxusuna gedib. Amma zabit və əsgərlərin təlim zamanı atdığı güllələr elə bil bu sükutu diksindirirdi.

Təlim meydanında böyük canlanma var idi. Səhər yerbəyeri bir az əvvəl yekunlaşmışdı. Komandirdən yeni tapşırıqlar alan kəşfiyyatçılar qarlı dərənin zirvəsində təlim keçir, yeni döyüş vərdişlərinə yiyələnirdilər. Hər dəfə hərbi hissə və birləşmələrdə zabit və əsgərlərimizin belə inamla təlim keçdiklərini gördükcə ürəyim dağa dönür.

- Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq, şəxsi heyət müntəzəm təlim keçir, - deyə əsgərlərə məşğələ keçən leytenant İlkin Sadıqov sözə başladı. - Məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Şəxsi heyət məşğələlərdə fəal iştirak edir. Dərslər yekunlaşdıqdan sonra əsgərlərimiz qazandıqları vərdişləri təlimlərdə sınaqdan keçirirlər.



Bu qarlı havada yorulmaq bilmədən təlim keçən kəşfiyyatçılara yaxınlaşdıq. Bizi burada müddətdən artıq hərbi xidmət qulluqçusu, manqa komandiri çavuş Ceyhun Əliyev qarşıladı. Şəxsi heyətə keçdiyi təlimlərdən söz açaraq bildirdi ki, əsgərlərimiz hərbi bilikləri həvəslə öyrənirlər. "Kəşfiyyatçı ixtisasının müəyyən çətinliklərinə baxmayaraq, əsgərlər bu sahəyə böyük maraq göstərirlər. Kəşfiyyatçının sağlam və fiziki hazırlığının yüksək olması başlıca şərtlərdən biridir. Bölüyümüzün əsgərləri bütün tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Artıq onlar uğur qazanmağa adət ediblər. Məşğələ prosesində biz əsgərlərə zəruri olan bir çox hərbi bilik və vərdişləri aşılayırıq. Bölüyümüzün kəşfiyyatçıları torpaqlarımızın azadlığı naminə vuruşmağa və döyüşməyə hər an hazırdırlar. Onlar bu amal uğrunda bütün çətinlikləri dəf etməyə qadirdirlər".

Manqa komandiri nümunəvi xidmət edən əsgərlərin də adlarını çəkdi. Bildirdi ki, bölükdə xidmət edən əsgərlər qarşıya qoyulan hər tapşırığın öhdəsindən bacarıqla gəlir, daim biliklərini artırmağa səy göstərirlər. Müddətdən artıq xidmət edən hərbi qulluqçu Aqil Rəcəbzadə, əsgərlərdən Hasil Əliyev, Elmi Xanlarov, Ruslan Musayev, Gülməmməd Məlikov, Samir Məmmədov, Murad Qasımov, Ramit Əhmədov, Cəlal Vəzirov və başqaları nümunəvi xidmət etdiklərinə görə hər cür xoş sözə layiqdirlər. Bu əsgərlər dərs və məşğələlərdə fəal iştirak edərək hərbi bilikləri dərindən mənimsəyirlər. Sınaq təlimlərində yaxşı nəticə göstərir, ürəkaçan uğurlar qazanırlar. Bütün bunlar isə onların vətənpərvərliyindən xəbər verir.

- Döyüş vərdişlərini və silahların sirlərini öyrənməyə böyük həvəsim var, - deyə kəşfiyyatçı əsgər Hasil Əliyev bildirir. - Xidmətə gəldiyim ilk gündən snayper silahının sirlərini öyrənməyə maraq göstərdim. Artıq snayperdən hədəfləri dəqiq vurmağı bacarıram. Snayper ixtisasını mükəmməl öyrəndiyimə görə komandirlərimə borcluyam.

Qarlı zirvədə bacarıq və peşəkarlığını artıran kəşfiyyatçıların məşğələsi davam edir. Xüsusi geyim və görkəmdə olan əsgərlər leytenant İlkin Sadıqovun verdiyi tapşırıqları yerinə yetirərək cəld hərəkətlə irəli atılır, əmrləri icra edirlər. Şübhəsiz, bu cəsur kəşfiyyatçılar müqəddəs amal uğrunda - torpaqlarımızın azadlığı naminə əldə silah vuruşmağa, döyüşməyə hər an hazırdılar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Avropa Şurası Nazirlər Komitəsindən Dağlıq Qarabağda qanunsuz mühakimə olunmuş azərbaycanlıların azad edilməsi istənilib

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yeni başlayan qış sessiyasının ilk iş günündə Azərbaycandan sonra bu qurumun Nazirlər Komitəsinə rəhbərlik etməyə başlayan Belçikanın xarici işlər naziri Didier Reynders hesabat məruzəsi ilə çıxış edib.***

Keçən sessiyadan bəri görülən işlər barədə məlumat verdikdən sonra fəaliyyətdə olan Nazirlər Komitəsinin sədri ənənəvi olaraq deputatların suallarına cavab verib. Azərbaycanın AŞPA-dakı daimi nümayəndə heyətinin üzvü Rafael Hüseynov D.Reyndersə belə bir sualla müraciət edib: "Hər ölkədə məhkəmə ali hüquqi instansiya sayılır və onun qərarlarının icrası mütləqdir. Lakin bir də var qanuni mövcud olmayan qondarma bir qurumun saxta məhkəməsi və onun heç bir hüquqi gücü olmayan qərarı. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda girov götürülmüş və Dağlıq Qarabağda separatçı rejimin qanunsuz məhkəmə keçirərək ömürlük həbs cəzası verdiyi Dilqəm Əsgərov və 22 il müddətinə azadlıqdan məhrum edilmiş Şahbaz Quliyevin dərhal və qeydşərtsiz azad edilməsini bu ssenarinin arxasında duran Ermənistan dövlətindən tələb edə bilərsinizmi? Axı siz 6 ay müddətində Avropa Şurası Nazirlər Komitəsinin sədri kimi yüksək səlahiyyətlər daşıyacaqsınız və təsirli tədbir görməyə imkanınız olacaq".

Nazirlər Komitəsinin katibliyi ilə məsləhətləşmələrdən sonra D.Reynders təəssüflə bildirib ki, bu məsələ hələ orada müzakirə mövzusu olmadığından müfəssəl məlumata malik deyil. Ona görə də lap yaxın zamanda bu problemi diqqətlə öyrənəcək. Nazirlər Komitəsinin sədri əlavə edib ki, Ermənistana nəzərdə tutulan səfəri zamanı bu məsələni də rəsmi Yerevan qarşısında qaldıracaq.

Nazirlər Komitəsi sədrinin cavabında məsələnin araşdırılması vədindən əlavə diqqəti cəlb edən əsas cəhət bundan ibarətdir ki, Avropa Şurası Nazirlər Komitəsi Ermənistanın riyakarlıqlarına, guya Dağlıq Qarabağın öz siyasətini müstəqil şəkildə həyata keçirməsi haqda iddialarına zidd olaraq məhz Yerevandan izahat istəyəcəyini bəyan edib.

**AzərTAc**




# "Ümummilli liderimizin həyatı hər kəs üçün layiqli örnəkdir"

## Maddi-Texniki Təminat Baş İdarəsində "Heydər Əliyev irsini öyrənirik" məşğələsi keçirilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Maddi-Texniki Təminat Baş İdarəsində yanvarın 28-də "Heydər Əliyev irsini öyrənirik" mövzusunda nümunəvi məşğələ keçirilib.***

Məşğələ Azərbaycanın Dövlət himninin oxunması ilə başlanıb. Sonra idarənin şəxsi heyət şöbəsinin rəisi polkovnik İslam Gəncəliyev bildirib ki, Müdafiə nazirinin müavini, Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-mayor Qorxmaz Qarayevin müvafiq əmri ilə qurumun tabeliyindəki hərbi hissə və bölmələrdə ümummilli liderimizin siyasi fəaliyyətini, onun mənalı ömür yolunu şəxsi heyətə geniş təbliğ etmək məqsədilə "Heydər Əliyev irsini öyrənirik" mövzusunda ictimai-siyasi məşğələlər təşkil edilir. "Əlbəttə, bu məşğələlərin keçirilməsində əsas məqsəd ulu öndərin Vətənimiz qarşısında misilsiz xidmətlərini hərbi qulluqçularımıza təbliğ etmək, onun siyasi irsini dərindən öyrənməkdir", - deyə şöbə rəisi qeyd edib.

Polkovnik İ.Gəncəliyev geniş məruzə ilə çıxış edərək ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin yaradılmasında və ordumuzun formalaşmasındakı tarixi xidmətlərindən danışaraq dahi şəxsiyyətin mənalı ömür yolunun hər bir əsgər və zabitə ən layiqli örnək olduğunu vurğulayıb.

- Müdrik dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətinin tamamilə fərqli olan hər iki mərhələsində Azərbaycanın inkişafı naminə böyük uğurlara imza atıb, - deyə polkovnik Gəncəliyev öz çıxışına davam edib. - Hələ Sovet quruluşu dönəmində onun həyata keçirdiyi bir sıra mühüm tədbirlər xalqımızın böyük gələcəyinə hesablanmışdı. Bu gün qürurla qeyd etməliyik ki, Azərbaycanda ordu quruculuğunun əsası məhz böyük öndərin hərbi təhsil sahəsində atdığı inamlı addımlarla qoyulub. Haqlı olaraq C.Naxçıvanski adına Hərbi Liseyi bu gün "Heydər Əliyev Məktəbi" adlandırırlar, çünki o, bu vacib təhsil ocağını böyük çətinliklər hesabına yarada bilmişdi.



Təcrübəli zabit çıxışında ötən əsrin sonlarında qazandığımız tarixi müstəqilliyin və Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında ümummilli liderin misilsiz xidmətlərindən də söhbət açıb. Bildirib ki, ölkəmizdə mühüm dövlətçilik strategiyasının əsası dahi rəhbər Heydər Əliyev tərəfindən qoyulub. "Müstəqil dövlətimizin formalaşmasında müstəsna xidmətləri olan ulu öndər həm hüquqi-demokratik islahatların, həm də müasir iqtisadi inkişaf strategiyamızın yaradıcısıdır. 1993-cü ilin yayında dahi rəhbərin siyasi hakimiyyətə qayıdışından sonra nizami ordunun yaradılması istiqamətində çox mühüm işlər görüldü. Qısa vaxtda həyata keçirilən hərbi islahatlar nəticəsində güclənən ordumuz erməni silahlı bölmələrinə qarşı bir sıra uğurlu hərbi əməliyyatlar keçirtdi. Bu gün fəxr hissi ilə qeyd etməliyik ki, ümummilli liderin siyasi kursu onun layiqli yetirməsi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən inamla davam etdirilir. Müasir dövrdə ordu quruculuğu dövlətin siyasi kursunun prioritet istiqamətlərindən biridir. Məhz buna görə Azərbaycan Ordusu nəinki bölgədə, hətta dünya orduları sırasında hərbi potensialına görə öncül yerlərdən birini tutur".

Sonda dahi rəhbərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu",**
**fotolar Namiq ARİFOĞLUNUNDUR**

# Sözümüzdə diqqətli olaq

Cəbhə bölgəsində yerləşən hərbi hissənin qərargahına çatanda günorta çağı idi. Məsul vəzifəyə yeni təyinat alan və çoxdan tanıdığım zabitlə görüşəndə, onun ilk sözü bu oldu:

- Döyüş gedir, hələlik vəziyyət gərgindir.

Bu xəbərdən mütəəssir oldum. Sözünə davam edəcəyini gözləsəm də, Rafiq bundan artıq heç nə danışmadı. Hiss olunurdu ki, nəsə demək istəyir, sadəcə bir zabit kimi məxfiliyi qoruyur.

Döyüş onların müdafiə rayonunda getməsə də, bütün cəbhə boyu birlik və birləşmələrə hazırlıq əmri verilmişdi. Sağ cinahdan düşmənin xüsusi təyinatlı təxribat-diversiya qrupunun mövqelərimizə hücum etdiyindən xəbərdar idim. Döyüşçülərimizin sayıqlığı nəticəsində düşmən vaxtında aşkar olunaraq növbəti təxribatın qarşısı alınmışdı. Ermənilər hətta artilleriya silahlarından istifadə etmişdilər. Bu döyüşdə üç şəhid verdik, yaralananlarımız da oldu. Buna baxmayaraq, tutduğumuz mövqelərdən bir addım da geri çəkilmədik.

Həmin gün ön xətdə görüşdüyüm hərbçilərin üzündə məğrurluq, düşmənə qarşı bir qisas və nifrət hissi vardı. Onlar hər vəchlə ermənilərdən törətdikləri təxribatın heyfini çıxmağa çalışırdılar. Ön mövqedə əsgərlərimizlə görüşəndə, döyüşə atılmaq üçün ancaq əmr gözlədiklərini söylədilər. Onlar bu əmrə tam hazır idilər.

Hərbi qulluqçunun üzərinə düşən ən vacib vəzifələrdən biri də hərbi sirri qorumasıdır. Bu, yüksək döyüş hazırlığı qədər vacibdir. Zamanında bunun acısını çox çəkmişik. Birinci Qarabağ müharibəsi illərində ehtiyatdan gələn oğullarımız (o zaman onları könüllü adlandırırdılar) yaxşı döyüşsələr də, onların komandirləri bəzən hərbi əməliyyatlara hazırlaşanda böyük səhvlərə yol verirdilər. Əməliyyatın düzgün hazırlanmaması, məxfiliyin qorunmaması kimi hallar sonda faciələrə gətirib çıxarırdı. Bir hadisəni yaxşı xatırlayıram:

1993-cü ilin yanvar ayının ilk günləri idi. Ağdamda böyük uğursuzluğa düçar olan Surət Hüseynov öz "qoşun"u ilə gəlib bizim mövqelərə çıxmışdı. O zaman taborumuz Çıldıran kəndinin yuxarısında meşədə müdafiə mövqeyi tutmuşdu. Arxa cəbhəmiz kəndin boşalmış evlərindən birində yerləşirdi. Ərzaq və sursat üçün tez-tez kəndə düşüb qayıdırdıq. Bir dəfə ərzaq üçün arxa cəbhəyə gələndə taborun qərargah rəisi kapitan Elxan Həsənovla (hazırda ehtiyatda olan polkovnikdir) birgə mövqeyə qayıdası oldum. Dizə çıxan qar vardı. Belə havada dağa qalxmaq, hərəkət etmək çətin idi. Çıldırana "qoşun" yığılırdı. Hücum edəcək günə bir həftə vaxt qalsa da, hamının bundan xəbəri vardı. Belə bir mühüm məlumatın dillərdə dolaşması əsgər kimi məni də narahat etməyə bilməzdi. Qərargah rəisinin buna münasibətini öyrənmək istədim. O dedi:

- Allah eləsin hücum baş tutsun. Ancaq buna inamım yoxdur. Çünki mən bu gün qısamüddətli məzuniyyətdən, Bakıdan gəlirəm. Avtobus Kürdəmirdə yeməkxanalardan birində dayandı. "Ofisant" çayı gətirəndən sonra məni səhra geyimində və hərbi rütbədə görüb dedi ki, "komandir, yanvarın 14-də biz tərəfdən güclü hücum olacaq, düzdürmü?" Düzü, bundan xəbərim yox idi. Sonra Tərtərə gəldim, burada da mülki adamlar mənə eyni sualı verdilər. Ağdərəyə gələndə isə hər şey məlum oldu. Əgər Kürdəmirdəki o "ofisant" ön xətdə bir həftədən sonra nə olacağı barədə məlumatlıdırsa, unutmayaq ki, erməni kəşfiyyatı işləyir və bu məlumatı çoxdan əldə edib. Bizim bəlamız bundadır, hərbi sirrin qorunmamasında.

Deyilən tarixdə və bir neçə gün dalbadal hücum oldu, bir post belə ala bilmədik. Əksinə, itkilər verdik, dəyərli oğullarımızı itirdik. Vahid komandanlığın olmaması, pərakəndəlik, təsadüfi adamların ordumuzda yüksək vəzifələrə gətirilməsi o illərdə böyük faciələrə yol açırdı...

Bu gün bu problem yoxdur. Hazırda ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında daha da güclənir. Artıq ordumuz dünyanın ən güclü 50 ölkəsinin orduları sırasında yer alıb. Bundan sonra da ordumuz öz qüdrətini daha da artıracaq və gücləndirəcəkdir. Düşmən də yaxşı anlayır ki, o zəifləyib, daha Azərbaycan Ordusunun qarşısında duruş gətirmək gücündə deyil. Gec-tez işğal altında saxladığı ərazilərdən çıxmaq məcburiyyətində qalacaq. Çünki işğalçı Ermənistanın bundan başqa çıxış yolu yoxdur...

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Vətən üçün yaşayanlar yaşadırlar Vətəni

***Bu gün yaşadığımız cəmiyyətdə gənclərimiz arasında belə bir fikir formalaşıb ki, Azərbaycan əsgəri adını qazanmaq şərəfdir. Orduda xidmət keçən insanlar cəmiyyətdə özünəməxsus hörmətə malik olurlar. Bu da xalqımızın min illərdən bəri formalaşan adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə göstərir. Vətənin müdafiəsində dayanaraq, onu düşmən hücumlarından qorumaq müqəddəs vəzifədir. Ona görə də bu gün əcdadlarının şanlı hərb ənənələrini şərəflə davam etdirən gənclərimiz ordu sıralarına həvəslə yola düşür. Bütün bunlar da Azərbaycan cəmiyyətində formalaşmış yüksək mənəvi dəyərlərdən, vətənpərvərlik tərbiyəsindən irəli gəlir.***



Kişilik məktəbini keçmək üçün həqiqi hərbi xidmətə yollanan gənclərimizin mənəvi-psixoloji, fiziki və döyüş hazırlıqlarının artırılması istiqamətində Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və bölmələrində də əməli tədbirlər görülür, qabaqcıl təcrübələrdən yetərincə istifadə edilir. Belə ki, əsgərlər mütəmadi olaraq təşkil olunan dərs və məşğələlərdə, taktiki-döyüş təlimlərində iştirak edərək Vətənin əsl müdafiəçiləri kimi formalaşırlar. Həmçinin, bütün hərbi hissə və bölmələrin ideoloji otaqlarında, taktiki siniflərdə vətənpərvərliyi və ordumuzun gücünü əks etdirən təbliğat guşələri yaradılıb.

Bu günlərdə hərbi hissələrimizdən birində keçirilən ictimai-siyasi hazırlıq dərsində iştirak etdim. Mexanikləşdirilmiş bölmənin ideoloji otağında keçirilən dərsi zabit Hikmət Abbasov aparırdı. Əsgərlər qarşısında çıxış edən zabit ilk olaraq hərbi vətənpərvərlik tərbiyəsindən, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda, milli dövlətçiliyimizin möhkəmləndirilməsində öz şücaətləri ilə seçilən, Vətən yolunda canını belə əsirgəməyən xalqımızın mərd oğullarından danışdı. Torpaqlarımızın müdafiəsi zamanı düşmənlə qızğın mübarizədə xüsusi cəsarət nümayiş etdirərək Milli Qəhrəman adını qazanmış ləyaqətli oğullar haqqında ətraflı danışan zabit məlumat verdi ki, Azərbaycanın Milli Qəhrəmanı fəxri adı Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. Məşğələ rəhbəri onu da vurğuladı ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli dövlətçilik siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsində müstəqil Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində layiqli yer tutur. Respublikamızın müdafiə qüdrəti gündən-günə artır. Artıq ölkəmizin inkişaf etmiş müdafiə sənayesi Silahlı Qüvvələrimizi milli silah və texnikalarla təmin edir.

Dərs zamanı şəxsi heyətin fəallığı diqqəti cəlb edirdi. Belə ki, əsgərlər onları maraqlandıran suallarla zabit Hikmət Abbasova müraciət edirdi. Dərsi aparan zabit də öz növbəsində ona ünvanlanan suallara tam dolğunluğu ilə cavab verirdi. Beləliklə, bir dərs saatı bu minvalla başa çatdı. Dərsdən sonra əsgərlərin bir neçəsi ilə həmsöhbət oldum.

Rüstəm Rüstəmli ali təhsilini başa vurduqdan sonra 2014-cü ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılıb. Hazırda mexanikləşdirilmiş bölmədə nümunəvi xidməti ilə seçilən əsgərlərdən biridir. Həmsöhbətim hərbi xidmət haqqındakı təəssüratlarını belə bölüşdü:

- Xidmət etdiyim bu bölmədə hər birimizin yenilməz döyüşçü keyfiyyətlərinə, hərtərəfli biliyə yiyələnməyimiz üçün dərs, məşğələ və təlimlər keçirilir. Belə tədbirlərdə fəal olmağa çalışırıq ki, Vətən qarşısındakı borcumuzu layiqincə yerinə yetirək. Əsgərlər arasında belə bir fikir formalaşıb ki, zabit əsgər üçün həmişə nümunə olmalıdır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi kimi, "Tərbiyə işinin ən təsirli forması şəxsi nümunə olmaqdır". Çünki vətənpərvərlik o yerdə yüksək olur ki, zabit əsgər üçün şəxsi nümunədir və keçdiyi mövzuları xalqımızın qəhrəmanlıq tarixi ilə əlaqələndirərək əsgərlərə tam dolğunluğu ilə çatdırır. Mən hazırda əsgər kimi xidmət edirəm və Vətənə olan borcumu - ordu sıralarında xidmət etməklə qarşıma məqsəd qoymuşam. Ən böyük arzum isə gələcəkdə şərəfli Azərbaycan zabitinin formasını daşımaqdır.

Növbəti həmsöhbətim də nümunəvi xidməti ilə seçilən əsgərlərdən biri Səlcuq Müzəffərlidir. Ali təhsilini başa vurduqdan sonra 2014-cü ilin iyulunda həqiqi hərbi xidmətə çağırılan Səlcuq hərbi xidmətin hər bir gəncin həyatında mühüm rol oynamağından bəhs etdi:

- Biz ailədə beş qardaşıq. Artıq onların ikisi hərbi xidmətini başa vurub. Mən və başqa bir qardaşım xidmətimizi davam etdiririk. Böyük qardaşlarım orduda kişilik məktəbini keçməyin vacibliyini məsləhət görürdülər. Mən ali təhsil aldığım illər ərzində çalışırdım ki, bir gənc vətəndaş kimi Vətənimizi xarici ölkələrdə layiqincə təmsil edim. Bir neçə xarici dil bilirəm və bu da beynəlxalq tədbirlərdə köməyimə çatırdı. Xidmətimi başa vurduqdan sonra təhsilimi davam etdirərək magistr dərəcəsi almaq istəyirəm. Həm də hamımız yaxşı bilməliyik ki, Vətən qarşısındakı borcumuz hərbi xidmətlə yekunlaşmır. Biz harada oluruqsa, Azərbaycanımızı layiqincə təmsil etməliyik.

Məşğələnin sonunda zabit Hikmət Abbasovla da həmsöhbət oldum. Zabit olmağı erkən yaşlarından arzuladığını deyən müsahibim qeyd etdi ki, şəxsi heyətin yüksək döyüş qabiliyyətinə və mənəvi-psixoloji hazırlığa malik olması Azərbaycan əsgərini yenilməz edən amillərdir. Bütün bunlara görə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığına və bu sahədə qabaqcıl təcrübənin tətbiqinə ciddi fikir verilməlidir. Əsas məqsədimiz gənclərimizi Vətənimizin müdafiəsinə hazırlamaq, onlara hərbi bilik və bacarıqları mənimsətməkdir. Bunun üçün də əsgərlərimizi mənəvi-psixoloji və fiziki cəhətdən hazırlamaqla, onlara Vətənə məhəbbət, xalqa sədaqət hisslərini aşılayırıq. Biz bu sahədə ümummilli liderimizin dəyərli irsinə və xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanırıq. Ali Baş Komandanımız cənab İlham Əliyevin "Milli qürur, milli ləyaqət, milli həmrəylik, milli siyasət və dini tolerantlıq" tövsiyələri fəaliyyətimizin əsas məqsədini təşkil edir.

Cəmi bir dərs saatında hərbi bölmənin şəxsi heyəti ilə tanışlığımın nəticəsi kimi qeyd edə bilərəm ki, bu gün Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və bölmələrində xidmət edən gənclərimizin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Ona görə də tam əminliklə deyə bilərik ki, Vətən üçün yaşayan gənclərimiz Azərbaycan Silahlı Qüvvələrində qürur və şərəf hissi ilə xidmət edirlər.

**Nəriman NƏCƏFOV, Naxçıvan**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə əhalisinin sayı 77,69 milyonu ötüb



2014-cü ildə Türkiyə Cümhuriyyətinin əhalisi bir qədər də çoxalıb və 1 milyon 28 min 40 nəfər artıb.

Qardaş dövlətin rəsmi orqanlarının verdiyi rəsmi statistik məlumata görə, hazırda əhalinin ümumi sayı 77, 69 milyonu ötüb. Son illərdə yüksək iqtisadi göstəricilərə nail olmuş nüfuzlu NATO ölkəsində əhalinin əksəriyyətini kişilər təşkil edir. Belə ki, Türkiyə əhalisinin 50,2 faizi kişilərdən ibarətdir, qalanını isə qadınlar təşkil edir.

## 2014-cü ildə Fransada antisemitizm halları iki dəfə artıb



Fransada antisemitizm halları 2013-cü illə müqayisədə 2014-cü ildə 101, fiziki zorakılıq halları isə 130 dəfə artıb. Bu barədə Fransa Yəhudi Təsisatları Əlaqələndirmə Şurasının sədri Roje Kukierman məlumat yayıb.

Məlumatda bildirilir ki, Fransa kimi demokratik bir ölkədə əgər 2013-cü ildə 423 antisemitizm halı baş vermişdisə, 2014-cü ildə bu cür halların sayı iki dəfə artaraq 851-ə çatıb. Fiziki zorakılığa gəldikdə, 2013-cü ildə 105 hadisə qeydə alınmışdısa, 2014-cü ildə bu rəqəm 241 təşkil edib.

Sədr istər yəhudilərə, istərsə də digər azsaylı xalqlara qarşı antisemitizm hallarının və fiziki təzyiqlərin artmasından ciddi narahatlığını ifadə edib.

## Rusiya AŞPA-da səs hüququnu itirdi



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komissiyası Rusiyanın səs hüququndan məhrum edilməsi ilə bağlı qərar qəbul edib.

APA-nın Avropa bürosunun xəbərinə görə, bunu Rusiyanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Vladimir Puşkov deyib.

O bildirib ki, rusiyalı deputatlar üçün səs hüququnun aprel və ya iyuna qədər dondurulması arasında heç bir fərq yoxdu: "Biz bütünlükdə 2015-ci il boyu AŞPA-nın işini boykot edirik".

Bununla bərabər, aprel sessiyasında Rusiyanın assambleyanın orqanlarına rəhbərlik etmək imtiyazı da olmayacaq.

## Apple şirkətinin rekord rüblük gəliri: 18 milyard dollar



ABŞ-ın Apple korporasiyası 2014-2015-ci maliyyə ilinin birinci rübündə 74,5 milyon iPhone smartfonları sataraq rekord gəlir əldə edib. Bu, keçən ilin analoji dövrü ilə müqayisədə 29,5 faiz çoxdur.

AzərTAc xəbər verir ki, həmin dövrdə korporasiyanın xalis gəliri 18 milyard dollara çatıb. Keçən il isə bu məbləğ 13,1 milyard dollar təşkil etmişdi.

2015-ci maliyyə ilinin ikinci rübündə isə şirkət 52-55 milyard dollar gəlir əldə etməyi planlaşdırır. Eyni zamanda, həmin dövrdə korporasiyanın əməliyyat xərclərinin 5,4-5,5 milyard dollar olacağı gözlənilir.

## NASA Yerin yaxınlığından keçən nəhəng asteroidin fotoşəkillərini yayıb



NASA alimləri Yer kürəsinin 1,2 milyon kilometrliyindən ötüb keçən, diametri 500 metrə çatan nəhəng asteroidin ilk fotoşəkillərini təqdim ediblər.

Rusiyanın NTV telekanalı xəbər verir ki, dərc edilən şəkillərdə asteroidin Yerə maksimum yaxınlaşdığı məqam əksini tapıb. Bu zaman səma cisminin sürəti saniyədə 15 kilometr təşkil edib.

2004-cü il yanvarın 30-da aşkarlanan asteroid potensial təhlükə sırasına daxil edilib və həmin vaxtdan etibarən astronomlar onu müntəzəm surətdə izləyiblər.

Mütəxəssislərin hesablamalarına görə, oxşar növbəti asteroid Yerə 2015-ci il martın 27-də yaxınlaşacaq.

## İspaniyada hərbi təyyarənin qəzaya uğraması nəticəsində 10 nəfər həlak olub



Yunanıstanın hərbi hava qüvvələrinə məxsus F-16 tipli döyüş təyyarəsi yanvarın 26-da İspaniyaın Los Lianos hərbi bazasından uçuşa hazırlaşarkən yerdəki təyyarələrə toxunaraq qəza törədib. Qəza zamanı yerdəkilərdən 10 nəfər hadisə yerindəcə keçinib. Təyyarədəki hərbçilərdən 13-ü isə yaralanıb.

İspaniya müdafiə naziri pilotların səhvi üzündən qəza zamanı həlak olanların sayının artacağını istisna etməyib. Nazir yaralananların İtaliya, Fransa və Yunanıstan hərbçiləri olduğunu, onlardan yeddisinin ciddi xəsarət aldığını və beş nəfərin vəziyyətinin çox ağır olduğunu, bir hərbçinin isə xəstəxanada müayinədən sonra dərhal buraxıldığını qeyd edib.

## Kürd dəstələri Kobani şəhərini ələ keçiriblər



Kürd dəstələri Suriyanın Kobani şəhərində İŞİD-in əlində olan son böyük dayaq məntəqəsi üzərində nəzarətə yiyələniblər.

AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadla xəbər verir ki, kürd silahlıları İŞİD yaraqlılarını şəhərin şərqindəki Kanyə-Kürdə rayonundan sıxışdırıb çıxarmağa nail olublar.

Bir qədər əvvəl Kobani şəhərinin bu hissəsində yerləşən dörd küçəsində yaraqlıların tapılaraq məhv edilməsi üzrə əməliyyatlar aparılıb. Əməliyyatlar nəticəsində 30 nəfərdən çox İŞİD silahlısının öldürüldüyü bildirilir.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq, yenilməz sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun anadan olmasının 105, əbədiyyətə qovuşmasının 70 illiyinin tamam olması ilə əlaqədar keçirilən tədbirlər bu günlərdə Hərb Tarixi muzeyində də davam edib.*

# Xalqımız sərkərdə oğluyla fəxr edir



Fövqəladə bacarığa, biliyə malik olan sərkərdəyə həsr olunmuş tədbir Hərb Tarixi muzeyi və Mərkəzi Zabitlər Evinin nəzdindəki "Həzi Aslanov Muzeyi"nin birgə təşkilatçılığı ilə həyata keçirilib. Tədbiri giriş sözü ilə muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq bildirib ki, Böyük Vətən müharibəsində qəhrəmanlıqlar göstərmiş azərbaycanlıları xatırlayarkən ilk növbədə böyük sərkərdə Həzi Aslanov yada düşür. "Xalqımızın cəsur oğlu, tank döyüşlərinin mahir təşkilatçısı Həzi Aslanovun adı hərb tariximizə istedadlı komandir və qorxmaz döyüşçü kimi daxil olmuşdur".

Tədbir Dövlət himninin səsləndirilməsi, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqla şəhid olan Vətən övladlarının xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə davam etdirilib. Müdafiə Nazirliyinin, ali hərbi məktəblərin, hərbi hissələrin, Hərbi Akademiyanın, veteran təşkilatlarının, şəhər muzeylərinin nümayəndələri, həmçinin sərkərdənin ailə üzvləri - nəvəsi Emin Aslanov və onun qızı Fəran Aslanova tədbirdə iştirak ediblər.

Muzeyin tədqiqatçı elmi işçisi Sevər Həsənovanın "Həzi Əhəd oğlu Aslanovun döyüş yolu" adlı məruzəsi dinlənilib. Məruzədə diqqət çəkən məqam əfsanəvi tankçının 2 dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə süni maneələrin yaradılması məsələsi oldu. Bu barədə danışan natiq qeyd etdi ki, 1944-cü ilin 23-30 iyununda Həzi Aslanovun komandiri olduğu 35-ci qvardiya tank briqadası "Baqration" əməliyyatında xüsusilə fərqlənərək Minsk və Borisov şəhərlərini düşməndən azad edir. Həmin ilin 7 iyulunda 3-cü Belarusiya cəbhəsinin komandanı İvan Daniloviç Çernyaxovski tərəfindən "Baqration" əməliyyatının gedişində şəxsi igidliyinə görə həmyerlimiz 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adına təqdim edilir. Lakin erməni generalı İ.Baqramyan buna maneçilik törədir. Ölümündən 47 il sonra, 1991-ci ilin 21 iyununda tədqiqatçı-jurnalist Musa Bağırovun uzun illərin səyləri sayəsində Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilir.

Muzeyin elmi işlər üzrə rəis müavini, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənovun, tədqiqatçı elmi işçi Nuranə Nəcəfovanın, Həzi Aslanov adına muzeyin direktoru Zəminə Xınalının və digər tədbir iştirakçılarının çıxışları da maraqla qarşılanıb.

Tədqiqatçı Musa Bağırov general Həzi Aslanova 2 dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi ilə bağlı 1967-ci ildən apardığı araşdırmalardan, bu yolda ona göstərilən təzyiqlərdən söhbət açıb.

Görkəmli sərkərdənin nəvəsi Emin Aslanov çıxış edərək babasının əziz xatirəsinə göstərilən yüksək diqqət və dərin ehtirama görə ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını ifadə edib.

Sonra qəhrəman tankçının şanlı döyüş yolundan bəhs edən sənədli film nümayiş etdirilib.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*

***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*

***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*

***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*

***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*

***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*

***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*

***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Tarix

# Separatizm: Dağlıq Qarabağ

***Dağlıq Qarabağ haradadır? sualına birmənalı şəkildə belə cavab vermək olar. Bu bölgə Azərbaycanın mərkəzi hissəsində yerləşən və digər Azərbaycan bölgələrindən (məsələn, Aran Qarabağından) ayrılması mümkün olmayan və başqa cür yaşaması heç vaxt təsəvvürə gətirilməyən bir Vətən parçasıdır.***




"Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədi belədir: Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. İndi (Sınıq körpü) Qazax Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə) Kür çayına qədər - Goran çayıdır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" (M.C.Cavanşir Qarabağnamələr. I kitab, Bakı, 1989-cu il).

Qarabağ xanlığı 1822-ci ildə ləğv edilib əyalətə çevrilmişdi. 1836-cı ildə Sankt-Peterburqda nəşr edilmiş "Obozrenie"-də Qarabağ əyalətinin sərhədləri və sahəsi (13.000 kv.verst) verilmiş, onun xeyli hissəsinin dağlarla örtüldüyü qeyd olunmuşdur (Obozrenie Rossiyskix vladeniy za Kavkazom. ç. III SPb., 1836).

Çarizmin apardığı işğalçı müharibələr nəticəsində XIX əsrin 20-30-cu illərindən etibarən Cənubi Qafqaza köçürülərək yerləşdirilmiş ermənilər bir müddət sonra silahlı dəstələr yaradaraq azərbaycanlıları təhdid etməyə, böhranlı anlarda onlara qarşı kütləvi qırğınlar həyata keçirməyə başladılar. 1918-ci ildə Cənubi Qafqazda heç bir zaman olmayan Ermənistan adlı bir dövlət elan edildi. Azərbaycanlılara qarşı terror və soyqırımı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırıldı. 1920-ci ildə Azərbaycan və Ermənistan bolşevik Rusiyası tərəfindən işğal edilib sovetləşdirildikdən sonra da ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi, onların sıxışdırılması, Azərbaycan ərazilərinin Ermənistana verilməsi siyasəti davam etdirildi. 1920-ci il avqustun 5-də hazırlanmış bir arayışda Azərbaycanın Ermənistan ilə mübahisəsiz ərazisi belə göstərilirdi: sərhəd Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən başlayır, sonra Qazaxdan, Aleksandropoldan (Gümrü) və Yeni Bəyazitdən Maralıca dağlarına qədər, oradan birbaşa Göyçə gölünə enir, təxminən 112 verst şimala Çubuqlu kəndindən sonra Göyçə gölünü ikiyə bölür, onun cənub sahili ilə qərb istiqamətinə gedir, Göycə gölünün cənub sərhədində sərhəd Zağalı və Gödək Bulaq kəndləri arasından başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yuxarısından Göyçə gölünün cənub sahillərinin dağlıq rayonlarından - Qızıl Harava (təxminən 1859) və Ağmahan yüksəkliklərindən keçir, qərbdə İrəvan və Yeni Bəyazit qəzalarının sərhədlərindən Kiçik Ağdağa doğru gedir, müsəlmanların (azərbaycanlıların) yaşadığı dağlıq rayonları ermənilərin məskunlaşdığı kəndlərdən ayırır. Sonra sərhəd Kiçik Ağdağ dağlarından şimal-qərbə Toğmahan gölü istiqamətində Təzəkənd kəndinə doğru gedir, oradan Gərni çayı ilə Yuxarı Ağbaş kəndinə çatır və onun qarşısından şimala doğru 3620 yüksəkliyə qalxır, oradan cənub-qərbə Uluxanlıya gedir, Uluxanlı kəndi və Uluxanlı dəmiryolu stansiyasının arasından keçərək Araz çayına qədər uzanır və şimalda Rəncbər kəndinə çatır, Rəncbər kəndindən Araz çayınadək sərhəd birbaşa qərbə, Sürməli qəzası ilə Eçmiadzin və Qars vilayətlərinin keçmiş inzibati sərhədləri ilə qovuşur və Təndürək dağlarına, keçmiş rus-türk sərhədinə doğru gedir.

**(Ardı var)**

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

## Publisistik düşüncələr

# Əsgərin mənəvi idealı



Hər bir yeniyetmə orta məktəb illərindən başlayaraq öz istək və arzularına uyğun bir idealın izinə düşür. Ən yaxşı, ən mükəmməl nümunənin sorağı ilə daim araşdırma aparır. Əksər hallarda sevimli kitab və filmlərin qəhrəmanlarını özünə ideal seçir. Həyatının bütün dolanbaclarında həmin nümunəni təqlid etməyə səy göstərən yeniyetmə bəzən istəyinə çata bilməyəndə sarsılır, bəzən isə qəlbinin dərinliyində yeni bir ideal istəyi baş qaldırır.

Azərbaycan əsgərini cəlb edən, ordu həyatının mənasını və rolunu müəyyənləşdirən ideya və ideallar haqqında geniş danışmaq olar. Çünki idealsız yaşam tərzi insana maraqsız bir dünya kimidir. Ordu isə hər bir gənc üçün mənəvi sınaqlar meydanıdır. Bu aləmdə ideallara çatmaq üçün çox gözəl şərait mövcuddur.

Əsgərin hərbi xidməti, ordumuzun inkişafına şəxsi töhfəsi, nəhayət, vətəndaşlıq mövqeyi onun şəxsi idealının məzmunundan asılıdır. Mənəvi ideal hərbi and içdikdən sonra əsgərin mənəvi inkişafını sanki layihələndirir. Buna görə də əsgərin hansı şəxsi layihəyə əsasən formalaşması, onun bir ideal olaraq nə kimi örnəklər yaratması, hansı mənəvi məziyyətlərin onu cəlb etməsi, hərbi-etik tələblərin əsgərin mənəvi dəyərləri ilə necə əlaqələnməsi ordumuz üçün əhəmiyyətsiz məsələ sayıla bilməz.

"N" hərbi hissəsində andiçmə mərasimindən sonra asudə dəqiqələrdə bir neçə əsgərlə sorğu-sual keçirən zaman öz idealı üçün yaşayan oğullarımızla ünsiyyətdən mənəvi rahatlıq tapdım. "İdealın varmı?", "Kim olmaq istəyirsən?", "Həyatda özün üçün hədəf seçmisənmi?", "Yaşamağın mənasını nədə görürsən?" və s. suallarım cavabsız qalmadı.

**Əsgər Osman Səfərli:**

- Mən Azərbaycanın ikinci Mübarizi olmaq istəyirəm. Milli Qəhrəman olmaq heç vaxt dəyişməyən idealımdır. Yaxşı anlayıram ki, öz idealıma çatmaq üçün ən güclü döyüşçü kimi yetişməliyəm. Sevinirəm ki, ordumuz çox inkişaf edib. Ağıllı, vətənpərvər və ədalətli komandirlərimizin köməyi sayəsində hərb sənətinə tam yiyələnməyə can atacağam.

**Əsgər Natiq Məmmədli:**

- Gələcəkdə ölkəmizin dəyərli iqtisadçılarından biri olmaq istəyirəm. İlk cəhdim baş tutmasa da, ruhdan düşməmişəm. İndi Vətənə əsgərəm. İnanıram ki, əsgər şərəfini uca tutaraq müqəddəs hərbi borcumu can-başla yerinə yetirəcəyəm. İdealım ölkəmiz üçün ən yaxşı vətəndaş olmaqdır. Məncə, bu ideal hamının mənəvi ehtiyacını tam ödəyə bilər. Ola bilər ki, əsgərlikdən sonra iqtisadçı olmaq şansım baş tutmasın. Bəlkə də taleyimdə başqa yeni yol açılacaq. Lakin hansı sahədə olsam da, idealım dəyişməzdir.

**Əsgər Nizami İslamzadə:**

- Ölkəmizdə aparılan tikinti işlərinin miqyası genişlənir. Ən ucqar dağ rayonlarımızda da tikinti-quruculuq işləri geniş vüsət alır. Bakımız dünyanın ən gözəl şəhərləri ilə bəhsləşmək gücündədir. Bu yüksəliş məndə qürur hissini artırır. Memar olmaq fikrinə düşmüşəm. İdealım ölkəmizin paytaxtında ən yaraşıqlı və əsrarəngiz bir tikintinin layihə müəllifi kimi tanınmaqdır. Təbii ki, indi bütün gücümü hərb sənətini öyrənməyə yönəltmişəm. Bu, hər bir azərbaycanlı üçün müqəddəs vəzifədir.

İdeal seçilmiş bir hədəfdir, həyat yolunun yüksəlişini təmin edən başlıca səbəb isə məqsəddir. İdeal əsgərin mənəvi nailiyyətidir.

Hədəflərə doğru gedən yol kiminə qısa, kiminə uzun görünür. Əsgərin özünəməxsus əlamətləri - iradə, özünə qarşı tələbkarlıq, səbatlılıq, əzmkarlıq, məqsəd aydınlığı, özünü məhdudlaşdırmaq bacarığı, fəallıq və digər şəxsi keyfiyyətlər yoxdursa, seçilmiş ideal uzaq və cəlbedici bir obraz kimi qalır.

Şəxsi heyət üzrə komandir müavinləri bu istiqamətdə məqsədyönlü iş aparmaq üçün fərdi söhbətlərdən səmərəli istifadə etməlidirlər. Əsgərlərin ideal seçdikləri qəhrəmanlara özlərini oxşatmaq istəklərini təlimlər zamanı müşahidə etmək mümkündür. Ordu həyatında ideallara oxşamaq meyilləri daha çox güclənir. Belə ki, əli silahlı gənc özünü qüdrətli bir qüvvə sanır və bu zaman mənəvi təkmilləşmə onun karına gəlir. O, xüsusi olaraq ehtiyac duyduğu mənəvi xüsusiyyət və keyfiyyətləri mənimsəməyə, özünü onlara uyğunlaşdırmağa cəhd göstərir.

23 yanvar 1993-cü il tarixində Kəlbəcər rayonunun strateji əhəmiyyətli Çiçəkli dağı uğrunda döyüşün həlledici məqamında ordumuzun ilk briqadasının zabiti - bu günümüzün generalı Qorxmaz Qarayevin döyüşçülər qarşısında odlu-alovlu çıxışını yaxşı xatırlayıram:

- Mənim igid əsgərlərim, biz çox mühüm bir hücumu qələbə ilə başa çatdırmalıyıq. Bu hücum bir tərəfi bizdə, digər tərəfi düşmən əlində qalan Kəlbəcərin Çiçəkli dağı uğrunda gedir. Bu strateji yüksəkliyi hökmən ələ keçirməliyik. Yaxşı baxın, bu tərəfdə nə varsa, hamısı bizim üzümüzə gülür. Sanki hər dağ, qaya parçası, adi çınqıl da dil açıb bizdən imdad diləyir. Bütün bunlara biganə qalmağa mənəvi haqqımız yoxdur. Çünki biz bu torpağın əsl sahibiyik və ulu Vətənimiz Azərbaycanı qorumaq üçün doğulmuşuq. Azərbaycan varsa, biz də varıq. Azərbaycan yoxdursa, biz də yoxuq. İşğala biz son qoymalıyıq. Xalqımız bizim gücümüzə, qüdrətimizə ümid bəsləyir. Hiss edirsinizmi: azad etdiyimiz Murovdağın qayalarından süzülüb gələn bulaqlardan su içdikcə daha da güclənirik. Əlbəttə, bu hal yalnız doğmalıqdan, halallıqdan irəli gəlir. Biz hökmən qalib gələcəyik. Çünki ulu keçmişi ilə yanaşı genetik sərvəti ox vıyıltısı və qılınc cingiltisi sayılan şanlı türkün övladlarıyıq. Türk üçün qəhrəmanlıq fövqəladə bir əməl deyil, adi bir işdir. Gəlin özümüzü yaxşı tanıyaq və özümüzə qayıdaq. Qələbəmizə təminat verən əsas amil sizin qəhrəmanlığınızdır! Mən sizə güvənirəm, igid əsgərlərim!

Döyüşçülərin varlığını silkələyən bu sözlər hücumun uğurla tamamlanmasını təmin etmiş və mənəvi-psixoloji ovqatla yanaşı, əsgərlərin mənəvi ideallarını zənginləşdirmişdi. Doğrudan da, döyüşün qanlı-qadalı dəqiqələrində əsgərin daxilindəki gücü, qüvvəti gözlərindən oxumaq son dərəcə həssas psixoloji duyum tələb edir.

Azərbaycan xalqının gen yaddaşında Dədə Qorqudun müdrik zəkası, Nizaminin fəlsəfi hikməti yaşayır. Mənəvi dünyamıza Tomrisin sınmaz qeyrəti, Nəsimi cəsarəti, Füzulinin dərin bədii idrakı, Babəkin əyilməz ruhu, Əcəminin memar dərrakəsi, Tusinin elmi qüdrəti, Uzun Həsənin sərkərdəlik istedadı, Sara Xatunun diplomatiya incəliyi, Şah İsmayıl Xətainin dövlətçilik və dil sevgisi, Cavad xanın əyilməz dəyanəti, Mirzə Fətəlinin maarifçilik nuru, Həsən bəy Zərdabinin vətənçilik məfkurəsi, el atası Tağıyevin hüdudsuz səxavəti, Üzeyirin heyrətamiz musiqi biliciliyi, Mehdi qorxmazlığı, ümummili liderimiz Heydər Əliyevin ölçüyəgəlməz dahiliyi hakimlik edir. İndi siz nəticə çıxarın: silahlarımızda Qazan xan qılıncının təpəri, qollarımızda Koroğlu gücü necə tükənə bilər?!

Xəyallarımızda yaratdığımız və gerçəklikdə təcəssüm olunan ideallarımız bizi mənəvi cəhətdən gen-bol təmin etməkdədir. Bizim süni ruhlandırmaya ehtiyacımız yoxdur. Yeganə yol budur: hər birimiz özümüzə qarşı, öz daxili mənimizə qarşı tərbiyəedici, təlqinedici qüvvəyə çevrilməliyik.

**İbrahim MƏSİMOĞLU,**
**yazıçı-jurnalist**

# Krakovda Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə edilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşaya işgüzar səfəri çərçivəsində yanvarın 27-də Krakov şəhərində ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andryö (Fransa), İqor Popov (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi və Minsk qrupunun qarşıdan gələn dövr üçün nəzərdə tutulmuş fəaliyyət planı ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov Ermənistanın təxribatçı əməllərinə diqqəti cəlb edərək bu əməllərin danışıqlar prosesinə xələl gətirmək məqsədi güddüyünü bildirib.

Münaqişənin həllinə dair Azərbaycanın mövqeyini bir daha vurğulayan nazir ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu diqqətə çatdırıb.

Görüşdə Ermənistan tərəfindən girov götürülmüş soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsi ATƏT-in Minsk qrupunun həmsədrləri qarşısında qaldırılıb.

**AzərTAc**

# İdman

## "Bakı-2015" ilk Avropa Oyunlarının daha bir ulduz elçisi seçilib

"Bakı-2015" ilk Avropa Oyunları Əməliyyat Komitəsi tanınmış televiziya aparıcısı Azər Qəribi Avropa Oyunlarının ulduz elçisi seçib. Komitədən AzərTAc-a bildiriblər ki, Azər Qərib daxil olmaqla hazırda "Bakı-2015"-in musiqi, televiziya və incəsənət dünyasından 14 ulduz elçisi var.

Ulduz elçi proqramı "Bakı-2015"-in Azərbaycan və Avropada geniş tamaşaçı kütləsinə çatdırılmasına imkan yaradacaq. Proqram iştirakçıları "Bakı-2015"-in obyektlərinə baş çəkmək, gerisayım tədbirlərinə qoşulmaq, kampaniyaları dəstəkləmək və sosial şəbəkələrdən istifadə etməklə pərəstişkarları arasında oyunların təbliğ olunmasını təmin edəcəklər.

## Samboçularımız dünya kubokunun mərhələ yarışında iki medal qazanıblar

Almatı şəhərində Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin mükafatı uğrunda sambo üzrə dünya kubokunun mərhələ yarışı yekunlaşıb. Azərbaycan Sambo Federasiyasından AzərTAc-a bildiriblər ki, baş məşqçi Yaqub Abdullayevin rəhbərliyi altında mübarizə aparan milli komandamız iki medal qazanıb.

Turnirdə Fəridə Qurbanova (64 kq) gümüş, Nəzakət Xəlilova (52 kq) isə bürünc medala sahib olub.

Görüşlərin idarə olunmasında ölkəmizi Cabir İsmayılov təmsil edib.

## Paralimpiyaçılarımız beynəlxalq turnirin ilk günündə iki medal qazanıblar

Dubayda paralimpiyaçılar arasında kamandan oxatma üzrə beynəlxalq turnir keçirilir.

AzərTAc xəbər verir ki, turnirin ilk günü Azərbaycan idmançıları üçün uğurlu olub və oxatanlarımız iki medal qazanıblar.

Aynurə Rüstəmova şəxsi yarışlarda fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Cütlüklərin yarışında isə A.Rüstəmova Cahan Musayev ilə birlikdə bürünc medal qazanıb.

## Stolüstü tennis üzrə "TOP-16" turniri başa çatıb

Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə keçirilən stolüstü tennis üzrə "TOP-16 turniri" başa çatıb. Federasiyadan AzərTAc-a bildiriblər ki, iki gün davam edən turnir beynəlxalq stolüstü tennis qaydalarına uyğun keçirilib.

Qadınlar arasında şəxsi yarışlarda R.Quliyeva birinci, D.Simenq ikinci və Ç.Zoo üçüncü yerləri tutublar.

Kişilər arasında isə Ramin Cəfərov birinci, Fərhad İsmayılov ikinci və Xəyal Həşimli üçüncü yerlərə layiq görülüblər.

## "Qəbələ" futbol klubu növbəti transferini gerçəkləşdirib

"Qəbələ" Belarus milli komandasının yarımmüdafiəçisi Mixail Sivakovu heyətinə cəlb edib. İyirmi yeddi yaşlı futbolçu ilə yarım illik müqavilə imzalanıb.

Klubdan AzərTAc-a bildiriblər ki, Minskin "Smena" klubunun yetirməsi olan orta sahə oyunçusu 15 yaşında "BATE"yə keçib. Beş il bu komandada çıxış etdikdən sonra M.Sivakov İtaliyanın "Kalyari" klubuna transfer olunub. Dörd dəfə Belarus, 1 dəfə Polşa çempionu olan futbolçu vətənində ölkə kuboku və Superkubokunu da qazanıb. 2004-cü ildən milli komandalara cəlb olunan M.Sivakov ölkəsinin U-17, U-19, U-21, Olimpiya və əsas yığmalarının şərəfini qoruyub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Müddətdən artıq xidmət edən hərbi qulluqçu əsgər Əşrəfov İsmayıl Mayıl oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Bayramova Kövsər Haqverdi qızının adına verilmiş Ceyranbatan Bələdiyyə Şurasının 30 iyul 2001-ci il tarixli 07 saylı qərarın çıxarışı itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 220
Nüsxə 4600